# Tələbələrin müstəqil işləri özünütəhsilin vasitəsi kimi

**Aynurə Mirzəyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorantı*
**E-mail:** aynureezizova1985@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. M.İ. İlyasov,
p.ü.f.d., dos. S.M. Qurbanova

**Açar sözlər:** universitet, tələbə, özünütəhsil, təhsilin informasiyalaşdırılması, müstəqil iş
**Ключевые слова:** университет, студент, самообразовательной, информатизация образования, самостоятельная работа
**Key words:** university, student, self-education, informatization of education, independent work

Cəmiyyətimizdə baş verən sürətli dəyişikliklər insanlar qarşısında davamlı olaraq yeni şeylər öyrənmək, bilik və bacarıqlarını inkişaf etdirmək məcburiyyətini qoyur. Sosial həyatda, həmçinin onun tərkib hissəsi olan təhsildə texnologiyanın inkişaf etməsi təhsilalanlarda yeni bacarıqlar öyrənmək məcburiyyəti yaradır.

Bu günün əsas məsələsi yalnız universiteti bitirmək deyil, özünü hərtərəfli inkişaf etdirmək, aldığı təhsilə müvafiq bacarıqlara malik olmaqdır. Hər bir tələbəni düşündürəcək məsələ də bu olmalıdır. Özünü inkişaf etdirməyən şəxslərin işsizlik təhlükəsi ilə qarşı-qarşıya olmasını hər bir tələbə aydın dərk etməlidir. Bu prosesdə özünütəhsilin rolu olduqca əhəmiyyətlidir.

Cəmiyyətin inkişafının başlıca amili olan təhsil böyük pedaqoqların diqqət mərkəzində olmuşdur. Bunlar arasında XVII əsrin məşhur pedaqoqu olan Y.A.Komenskini xüsusilə qeyd etmək yerinə düşərdi. Onun üzərində durduğu ən mühüm məsələ təhsilalanların düşünərək, mühakimə yürüdərək müstəqil fəaliyyət bacarıqlarına yiyələnmələri idi. XVIII əsrin fransız mütəfəkkiri J.J.Russo isə təhsil alanın sərbəst fəaliyyəti, hər çətinlikdən özünün çıxması, müstəqil nəticələrə gəlməsi baxımından müstəqil işi vacib hesab etmişdir. Böyük pedaqoq K.D.Uşinski pedaqoq qarşısında "öyrənməyi öyrətmək" və təhsil alana həyatda öz yolunu tapmağa kömək etmək vəzifəsini qoyurdu. K.D.Uşinski deyirdi: "Şagirdin müstəqil düşünən başı hər cür faydalı təlimin yeganə möhkəm əsasıdır".

Geniş mənada özünütəhsili İ.L.Naumçenko ilkin olaraq sosial-pedaqoji anlayış kimi mənalandırır və göstərir ki, özünütəhsil kütlələrin intellektual inkişafının metod və səviyyəsini, cəmiyyətin mədəni, iqtisadi, elmi-texniki inkişafını və hərəkət xüsusiyyətlərini müəyyənləşdirir. Onun fikrincə, özünütəhsil özündə zəhmətkeş kütlələrin ümumi, siyasi və ixtisas təliminin bütün sistemi ilə sıx bağlıdır (1, 9).

Tələbələrin müstəqil işi – təhsilalanların bilik, bacarıq və vərdişlərə davamlı yiyələnməsinə, onların intellektual inkişafına, müstəqil fikri fəaliyyətə və əməli işlərə fəal hazırlaşmasına, özünütəhsilə əsaslı şəkildə kömək edən mühüm pedaqoji-didaktik tələb, vasitə və əsas komponentdir. Günümüzdə tələbələrin müstəqil işləri böyük əhəmiyyətə malikdir. Çünki müstəqil iş bu günün tələbəsini müstəqil biliklərə yiyələnməyə, özünütəhsilə, rəqabətə davamlı işə və fəaliyyətə hazırlayır.

Ali məktəb tələbələrə hazır biliklər verməkdən daha çox "bilikləri əldə etmək" yollarını,

"özünütəhsili" öyrətməlidir. Bunu dünya ölkələrində, o cümlədən respublikamızda müasir təfəkkürə yaranan tələbat, sosial-iqtisadi, elmi və texniki tərəqqi, texnologiyanın sürətli inkişafı tələb edir.

Müasir dövrümüzdə özünütəhsil həyati tələbatlara çevrilir. Buna görə də ali pedaqoji təhsildə tələbələrin müstəqil işlərinə və özünütəhsilinə xüsusi diqqət verilməli və şərait yaradılmalıdır. Tələbələrin müstəqil işlərinə sistemli və ardıcıl yanaşılmalı, onlara müxtəlif elmlərin qarşılıqlı əlaqəsi baxımından yanaşılması öyrədilməli, vaxtdan səmərəli istifadə edilməli, müasir texnika və texnologiyalardan (kompüter, texniki vasitələr) istifadə bacarıqları formalaşdırılmalıdır.

Ali məktəbdə tələbə müstəqil işinin imkanlarından geniş istifadə edilməlidir. Bu zaman tələbə müstəqil işlərinin təşkilində bir sıra prinsiplərin gözlənilməsi vacibdir:

1. Müstəqil işin təşkilində varislik.
2. Müstəqil işin tədris prosesinin müxtəlif formaları ilə qarşılıqlı əlaqəsi.
3. Fərdi və frontal müstəqil işin əlaqələndirilməsi.
4. Təlim prosesinin bütün mərhələlərində nəzəri və praktik işin əlaqələndirilməsi.
5. Müstəqil işin həcmi və onun yerinə yetirilməsinə ayrılan müddətlə tələbələrin vaxt büdcəsi arasındakı nisbətin elmi baxımdan əsaslı olması (2, 36).

Tələbələrin müstəqil işlərinin təşkili zamanı təkcə pedaqoji prinsiplərə deyil, həm də bir sıra mühüm sosioloji, psixoloji prinsiplərə əməl olunmalıdır. Tələbə müstəqil işinin səmərəliliyinin təmin edilməsində metodların düzgün seçilməsinin də rolu böyükdür. Bunlara müəllimin təşkiledici, korreksiyaedici, istiqamətverici, təkanverici məsləhəti, müəllim-tələbə əməkdaşlığı, müşahidə, müsahibə, müstəqil işin mövzusu ilə bağlı ədəbiyyatların əlçatan olması, vaxtın düzgün müəyyən edilməsi, kompüterdən-internetdən rahat istifadə edilə bilməsi və s. aiddir.

Ali pedaqoji təhsil müəssisələrində tələbələrin müstəqil işin təşkili iki şəkildə həyata keçirilir: 1. Auditoriyada; 2. Auditoriyadankənar.

Hər bir müəllimin məqsədləri sırasında təhsil alanın yaradıcı təfəkkürünün formalaşdırılması, onun müstəqil idrak fəaliyyətinin inkişaf etdirilməsi dayanır. Ona görə də tələbə müstəqil işinin təşkilində tədris-tərbiyə (auditoriya) prosesi birinci yeri tutur. Lakin bu təcrid olunmuş şəkildə deyil, auditoriyadankənar müstəqil işlərlə zənginləşir, tamamlanır. Bir-birini tamamlayan bu prosesdə auditoriya məşğələsində aşılanan tələbə müstəqil iş bacarıqları auditoriyadankənar müstəqil işin çətinlik çəkmədən yerinə yetirilməsinə kömək edir.

Ali məktəbdə auditoriya və auditoriyadankənar proseslərdə İKT-dən istifadə etməklə tətbiq olunan müstəqil iş formalarından aşağıdakıları qeyd etmək olar:

— mühazirə prosesində nümayiş etdirilən slaydlarda verilənləri konspektləşdirmək;
— tədris ədəbiyyatından, internetdən və əlavə mənbələrdən istifadə etmək;
— seminar məşğələləri üzrə təqdimatlar hazırlamaq;
— kompüterdən istifadə etməklə laborator və praktik tapşırıqları icra etmək;
— istehsalat və pedaqoji təcrübədə kompüterdən və təlimin texniki vasitələrindən istifadə etməklə dərslərə hazırlaşmaq;
tələbə elmi dərnəklərində fəaliyyət göstərmək;
— kurs və buraxılış işləri yazmaq üçün internet resursları ilə işləmək;
— TEC xətti ilə tədris və elmi-tədqiqat işləri aparmaq.

Pedaqoji ədəbiyyatlarda tələbələrin özünütəhsil və müstəqil fəaliyyətinin müxtəlif səviyyələri fərqləndirilir. Tədqiqatçı N.V.Basova da özünütəhsilin, müstəqil işin məqsədyönlü inkişafını tələbə fəaliyyətinin 6 səviyyəsi ilə xarakterizə etmişdir:

Birinci səviyyədə tələbə müstəqil işin vasitələri ilə tanış edilir. Ona görə də bu mərhələ hazırlıq, tanışlıq mərhələsi adlanır. İkinci səviyyədə tələbə öyrəndiklərindən istifadə edərək işləməyə başlayır. Ona görə də bu mərhələ reproduktiv mərhələ adlanır. Üçüncü səviyyədə tələbə müəyyən tapşırığı yerinə yetirmək üçün məlumatların, faktların müəyyən müstəqil axtarışlarına başlayır. Ona görə də bu mərhələ təlim-axtarıcılıq və ya hissəvi-axtarıcılıq mərhələsi hesab edilir. Dördüncü səviyyədə tələbə müstəqil eksperiment aparmağa girişir. Bu mərhələ eksperimental-axtarıcı mərhələ adlanır. Beşinci səviyyədə tələbə eksperimental yolla topladığı faktları ya müəllimin köməyi ilə, ya da sərbəst ümumiləşdirir. Ona görə də bu mərhələ nəzəri-eksperimental mərhələ adlanır. Altıncı səviyyədə tələbə apardığı araşdırmalar əsasında kurs işi və ya diplom işi, yaxud digər müstəqil iş hazırlayır. Bu mərhələ nəzəri-praktik mərhələ adlanır (2, 63-64).

Tələbələrin müstəqil işlərinin düzgün təşkili və aparılması onların təkcə bu günü üçün deyil, gələcək həyatlarında da müstəqil, düşünülmüş şəkildə fəaliyyət göstərmələrinə zəmin yaradır. Buna görə də tələbələrin təhsil həyatında müstəqil işlərin böyük əhəmiyyəti və təsir imkanları vardır. Bunları aşağıdakı kimi qeyd etmək olar:

— müstəqil işlər tələbələrin bilikləri şüurlu surətdə qavramasına, dərk etməsinə və mənimsəməsinə şərait yaradır;

— müstəqil işlər təlim prosesində qavranılmış bilikləri möhkəmləndirməyə, dərinləşdirməyə və genişləndirməyə imkan verir;

— tələbədə ixtisasla bağlı bacarıq və vərdişləri formalaşdırır və daha da təkmilləşdirir;

— ali məktəbin tədris planına daxil olan auditoriya və auditoriyadankənar müstəqil işlər tələbələrin intellektual səviyyəsini artırır, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, onlarda tədqiqatçılıq bacarıqlarını formalaşdırır, mütəxəssis kimi formalaşmasına kömək edir;

— müstəqil işlər tələbəni özünütəhsil, özünütərbiyə, özünütəkmilləşdirmə fəaliyyətinə yönəldir, fasiləsiz təhsilə, ömürboyu təhsilə maraq yaradır;

— ali məktəbdə tələbə müstəqil işinin müxtəlif formaları varislik əsasında vəhdət halında təşkil edildikdə daha müvəffəqiyyətli nəticə əldə edilir;

— tələbə müstəqil işinin təşkili zamanı keyfiyyəti təmin etmək məqsədilə müvafiq sosial, pedaqoji, psixoloji, didaktik, metodik tələblərə əməl olunmalıdır;

— tələbə müstəqil işinin səmərəli təşkili və keyfiyyəti ali təhsil müəssisəsinin professor-müəllim heyətindən, elmi rəhbərdən, onun diaqnozlaşdırıcı, proqnozlaşdırıcı fəaliyyətindən, tələbəni lazımi istiqamətə yönəltmək məharətindən, öz yetirməsi ilə əməkdaşlıq etmək bacarığından çox asılıdır. Ali məktəbdə təhsil-tərbiyə fəaliyyətində olduğu kimi, tələbə müstəqil işinin təşkilində də əsas məsuliyyət müəllimin üzərinə düşür. Müəllim tələbəyə hazır biliklər vermir, bilikləri müstəqil surətdə əldə etməyi öyrədir, yetirmələrində elmə, tədqiqatçılığa, axtarıcılığa maraq və meyil yaradır, elmi həqiqətləri axtarıb tapmağı bacaran gənclər yetişdirir, sadəcə peşəkar deyil, eyni zamanda yaradıcı mütəxəssis formalaşdırır və bu mürəkkəb sistemdə təhsil-tərbiyənin, xüsusən də müstəqil işin bütün imkanlarından, tipləri və növlərindən, metod və formalarından istifadə etməyi bacarır (3, 267-268).

Ali təhsilin başlıca məqsədi tələbələrdə özünəinamı, özünütəhsili, özünütərbiyəni, özünütəkmilləşdirməni formalaşdırmaq, bir sözlə əsl mütəxəssis olaraq yetişdirməkdir. Bunda təlimin təşkili formalarından biri olan müstəqil işin və İKT-nin böyük rolu vardır. Günümüzdə artıq tələbələrin müstəqil işlər üzərində səmərəli çalışması xeyli asanlaşmışdır. Əvvəllər yalnız kitabxanalara üz tutan tələbələr bu gün universitetin kompüter zalında və ya rahat şəkildə vaxta qənaət edərək evdə oturaraq lazım olan məlumatı əldə etmiş olurlar.

Tələbələrin müstəqil fəaliyyətinin təşkilində İKT-dən istifadənin bir sıra üstünlükləri

vardır:

— məsafədən öyrənmə və öyrənilənlərə nəzarət imkanı verir;
— müstəqil fəaliyyətin təşkilini avtomatlaşdırır;
— biliklərin genişlənməsinə, möhkəmlənməsinə və dərinləşməsinə imkan verir;
— yaranan problemlərin həlli üçün yaradıcı bir yanaşma hazırlayır;
— informasiya və kommunikasiya bacarıqlarını formalaşdırır;
— şəbəkədə məlumatların axtarışını və işlənməsini asanlaşdırır;
— avtomatlaşdırılmış kitabxana sistemləri, elektron jurnallarından istifadə etmək imkanını reallaşdırır;
— təqdimatların hazırlanmasına və təqdiminə şərait yaradır;
— maraqlı müzakirə materiallarını əldə etmək imkanı verir;
— tematik cədvəllərin tərtib edilməsini asanlaşdırır;
— əsas tədqiqat metodlarından istifadə etmə (ədəbiyyatın təhlili, informasiya mənbələrinin axtarışı, məlumatların toplanması və emalı, elmi nəticələrin izahı, yeni problemləri görmə, hipotezlər, onların həll üsulları) imkanlarını artırır;
— xarici dillərdən məlumatın istifadə edilməsinə şərait yaradır;
— özünü yoxlamaq üçün testdən istifadəyə imkan verir və s.

Tələbə müstəqil işlərinin səmərəli təşkili: a) məcburi icra tapşırıqlarının və ədəbiyyatın elmi əsaslandırılmış normasının müəyyənləşdirilməsini, tələbələrin tədris və tədqiqat işlərinin səmərəli qrafiklərinin işlənməsini; b) tələbə müstəqil işlərində sistemlilik və ardıcıllığın gözlənilməsini və bu istiqamətdə metodikanın daim təkmilləşdirilməsini; c) İKT-nin əlçatan olmasını tələb edir (2, 56).

Müşahidələr göstərir ki, ali məktəblərdə müəllimlərin bəziləri tələbələrdə müstəqil işə maraq yaratmır, hətta bir çox halda müstəqil işi yoxlamadan qiymət verir və ya yazılan müstəqil işlər yoxlanıldıqdan sonra tələbələrin gözü önündə tullantı kimi atılır.

Təlim prosesində tələbələrə təkcə hazır biliklər verməklə kifayətlənməməli, onlara biliyin müstəqil əldə edilməsi yolları öyrədilməlidir. Bu işdə böyük məsuliyyət bilavasitə müəllimlərin üzərinə düşməkdədir. Onlar həm auditoriyada, həm auditoriyadan kənar tələbələrə müstəqil çalışa bilmə yollarını göstərməli, izah etməlidirlər. Müstəqil işdə daha çox nəzəri deyil, praktik məlumatlara yer verilməli, uzun deyil lakonik, mövzunun əsas məğzinə toxunulmalı, alınan nəticə analiz edilməlidir və s.

Müstəqil iş veriləndə vaxt, mövzunun çətinliyi nəzərə alınmalı, əlçatan ədəbiyyatlar, mənbələr göstərilməlidir. Lakin, çox təəssüf hissi ilə qeyd etmək istərdim ki, bir çox müəllimlər bu kimi məsələlərə əhəmiyyət vermir, hətta elə mövzunu seçib tələbəyə müstəqil iş kimi verirlər ki, ya tələbə həmin mövzuya uyğun ədəbiyyat tapa bilmir, ya da yoldaşlarından köçürmək məcburiyyətində qalır. Burada da təbii ki, tələbənin müstəqil fəaliyyətindən, özünütəhsilinin inkişafından söz gedə bilməz. Bunun üçündə müəllimlər həm auditoriya, həm də auditoriyadan kənar tələbə müstəqil işinin keyfiyyətini artırmaq üçün bu məqamlara xüsusi diqqət yetirməlidirlər.

**Məqalənin aktuallığı.** Tələbələrin müstəqil işi onların bilik, bacarıq və vərdişlərə davamlı yiyələnməsində, onların intellektual inkişafında, əməli işlərə fəal hazırlaşmasında və s. mühüm əhəmiyyət kəsb etdiyindən məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müstəqil işin formaları ilə yanaşı, əhəmiyyət və təsir imkanları, İKT-dən istifadənin üstünlükləri göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Наумченко И. Л. Самообразование будущего учителя. Саранск. Народное образование. М., 1960, №10.
2. Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Bakı: Çaşıoğlu, 2005.
3. Rüstəmov F. Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007.

**А. Мирзоева**

## Самостоятельная работа студентов как средство самообразования

## Резюме

В наше время самообразование превращается в жизненные потребности. Поэтому особое внимание должно быть уделено самостоятельной работе и самообразованию студентов высших учебных заведений, и для этого должны быть созданы условия. Правильная организация самостоятельной работы студентов дает возможность работать не только на сегодняшний день, но и на будущее. Поэтому самостоятельная работа студентов в учебной жизни имеет большое значение. Учитывая это, моя статья очень важна как актуальная педагогическая проблема.

**A. Mirzayeva**

## Students' independent works as a means of self-education

## Summary

İn modern times self-education are transformed into vital needs. Therefore, special attention must be given to the independent work and self-education of students in higher education and for this should be created conditions. Proper organization of students' independent work give an opportunity to work not only for today, but also for their future lives. Therefore, the independent work of students in the educational life has great importance. Considering these, my article is very importance as the actual pedagogical issue.

**Redaksiyaya daxil olub:** 04.04.2019